Qalibiyyətlə yoğrulmuş qürurun əbədi sədası

***2020**-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər paradı xalqımızın ürəyində alovlanan qürur və fərəh bayramı idi. Bu parad şanlı Qələbənin, həm də Azərbaycan Ordusunun yenilməz gücünün nümayişi idi.*

Azərbaycan xalqı o günlərdə qələbə sevincini bir daha yaşadı. Azadlıq meydanı Vətən müharibəsində qazanılan zəfərin tərənnümü olan bu möhtəşəm paradla tarixin şanlı səhifələrindən birinə çevrildi. Hər guşədən Bakıya on minlərlə insan axışdı. Vətən müharibəsi zamanı düşməndən qənimət götürülmüş hərbi texnikaların nümayişi Azərbaycan xalqının qələbə əzminin və mənəvi gücünün canlı ifadəsi idi.

Zəfər paradı Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusunun şanlı tarixə yazdığı "Dəmir yumruq" əməliyyatının əbədi təntənəsi idi. Ötən otuz ilə yaxın dövrdə işğal altında olan torpaqlarımızın azad edilməsi, hərbi gücümüzün xalqımızın milli birliyinin və Vətən sevgisinin bənzərsiz nümunəsi oldu. Dövlət başçımız paradda çıxışında bu tarixi günün əhəmiyyətini xüsusi vurğulayaraq dedi: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu Zəfər paradıdır və tarixi hadisədir. Bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan Bayrağı Azadlıq meydanına gətirildi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq irəli gedəcəyik".

2020-ci il dekabrın 10-da Azadlıq meydanında üç min nəfərdən çox şəxsi heyət və 150-dək hərbi texnika Azərbaycan Silahlı Qüvvələrinin gücünü nümayiş etdirdi. Bu texnikalar arasında müasir raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər yer aldı. İşğaldan azad olunan ərazilərdə qaldırılan dövlət bayraqlarının Azadlıq meydanına gətirilməsi Azərbaycanın qalibiyyətini simvolizə edirdi. O gün meydanda səslənən hər bir şüar, dalğalanan hər bir bayraq Azərbaycanın qürur dolu salnaməsinə yazılan yeni səhifənin əks-sədası idi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və türk əsgərlərinin paradda iştirakı isə iki qardaş xalqın ayrılmaz birliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Zəfər paradında Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif qoşun birləşmələrinin və digər hərbi birliklərin mütəşəkkil keçidləri Azərbaycan Ordusunun yenilməzliyini və əsgərlərimizin vətənpərvərliyini dünyaya göstərdi.

Azadlıq meydanına gətirilən iki mindən çox avtomobilin nömrə nişanlarından hazırlanmış, üzərinə "Qarabağ Azərbaycandır!" şüarı yazılmış kompozisiya isə tarixi zəfərin əyani sübutu, xalqımızın milli qürurunun və düşmənə vurduğu sarsıdıcı zərbələrin təcəssümü idi. 44 günlük müharibədən sonra Azərbaycan Ordusu hərbi islahatlarla qüdrətini daha da artırmış, yeni texnikalar almış, genişmiqyaslı Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirmişdir. Dövlətimizin başçısının qeyd etdiyi kimi bu zəfər siyasi-diplomatik və iqtisadi müstəvilərdə də davam etdirilərək, regional əməkdaşlıq və rifahın yeni reallıqlarını formalaşdırmışdır.

Bu parad Azərbaycan xalqının birliyinin, ordusunun qüdrətinin və Vətən sevgisinin parlaq simvolu kimi yaddaşlara həkk olundu. Bu qələbə Azərbaycan-Türkiyə qardaşlığını bir daha təsdiq etdi və bütün dünyaya nümayiş etdirdi ki, "iki dövlət, bir millət" olaraq daim çiyin-çiyinə irəliləyəcək. Bu gün biz o şanlı tariximizi xatırlayır və gələcək nəsillərə çatdırırıq. Zəfər paradı ölkəmizin gücünü, qüdrətini və dünya siyasi arenasında yeni reallıqlar yaratmaq bacarığını bir daha sübut etdi. Bu qələbə əbədi yaşayacaq.

Yusif ŞƏRİFZADƏ,
"Respublika".